Milli Büdcə Qrupu

# AYLIQ BÜLLETEN №3(3)

May 2007

# Mündəricat


1. **Büdcə prosesi və onun icrası**
- *Dövlət büdcəsinin icrası (yanvar-aprel 2007-ci il)*
- *Azərbaycan Dövlət Neft Fondu aktivlərinin bir hissəsini DB xəzinədarlığının idarəçiliyinə verib*

2. **Vergilər**
- *Üç Azərbaycan şirkəti vergi hesab-fakturaları üçün blankların hazırlanması tenderində iştirak edib*
- *Azərbaycanda vergi ödəyicilərinə xidmət üçün ilk terminal istismara verilib*
- *Azərbaycanın vergilər naziri ƏDV-hesablar sisteminin tətbiqinə başlama müddətini elan edib*

3. **Büdcə xərcləmələri**
- *«Büdcə xərclərinin artımı inflyasiyanı sürətləndirməyəcək»*
- *Nazir müavini: «Azərbaycan dəmir yollarının inkişafı proqramının dəyəri 1 mlrd. dollar məbləğində qiymətləndirilir»*
- *2007-ci ildə Azərbaycanda ipoteka kreditləşməsinə əlavə vəsaitlər tələb olunacaq*
- *Azərbaycanda Sahibkarlığa Yardım Milli Fondu güzəştli kreditlərin verilməsi üçün büdcə vəsaitlərinin 7 faizini əldə edib*
- *Azərbaycan Maliyyə Nazirliyi əhalinin sosial təbəqələrinin maliyyələşdirilməsinə dair işlərin nəticələrini açıqlayıb*
- *Parlament komissiyasının rəhbəri: Azərbaycan Dövlət Büdcəsinin neft sektorundan asılılığı zəifləyir*
- *Azərbaycan dövlət müəssisələri arasında qaz əməliyyatlarına görə qarşılıqlı hesablaşma mexanizmi dəyişdirilib*

4. **Büdcəyə nəzarət və şəffaflıq**
- *"Ernst & Young Holdings" Azərbaycan Dövlət Neft Fondunun auditini başa çatdırıb*

5. **Büdcə qanunvericiliyi**
- *Azərbaycan parlamenti "2006-cı il dövlət büdcəsinin icrası haqqında" qanun qəbul edib*
- *Azərbaycan parlamenti 2007-ci il dövlət büdcəsinin 8% artırılmasına dair qərar qəbul edib*
- *SSRİ dövründən banklarda qalan əmanətlərin qaytarılmasını nəzərdə tutan qanun layihəsi hazırlanır*
- *Parlament "Daxili audit haqqında" qanun layihəsini qəbul edib*
- *Azərbaycanın Nazirlər Kabineti müavinətlərin verilməsi qaydalarına dəyişiklikləri təsdiqləyib*

6. **Vətəndaş cəmiyyəti**
- *Milli Büdcə Qrupunun (MBQ) 2007-ci il may ayı üçün fəaliyyəti*

7. **Beynəlxalq təcrübə**
- *Azərbaycanın Maliyyə Nazirliyi SBFIC-in səlahiyyətlərini uzatmağa hazırlaşır*

# Büdcə prosesi və onun icrası

***Dövlət büdcəsinin icrası (yanvar-aprel 2007-ci il)***

Dövlət büdcəsi. 2007-ci ilin yanvar-aprel aylarında dövlət büdcəsinə 1869.1 milyon manat və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 73.3 faiz çox vəsait daxil edilmişdir. Büdcə gəlirlərinin 78.5 faizi (1468.0 milyon manatı) Vergilər Nazirliyi, 12.0 faizi (224.2 milyon manatı) Dövlət Gömrük Komitəsi tərəfindən təmin edilmiş, qalan hissəsi isə (176.9 milyon manatı) digər mənbələrdən yığılmışdır. Vergilər Nazirliyi büdcə gəlirlərinin bu dövrə olan proqnozunu 106.7 faiz, Dövlət Gömrük Komitəsi isə 101.7 faiz yerinə yetirmişdir. Gəlirlərin 328.8 milyon manatı və ya 17.6 faizi əlavə dəyər vergisindən, 927.5 milyon manatı (49.6 faizi) hüquqi şəxslərin mənfəət vergisindən, 161.4 milyon manatı (8.6 faizi) fiziki şəxslərın gəlir vergisindən, 80.8 milyon manatı (4.3 faizi) aksiz vergisindən, 83.1 milyon manatı (4.4 faizi) isə xarici iqtisadi fəaliyyətlə bağlı vergilərdən daxil olmuşdur.

**2007-ci ilin yanvar-aprel aylarında dövlət büdcəsinin gəlirləri**

| | İcra, milyon manat | Xüsusi çəkisi, faizlə | 2006-cı ilin eyni dövrünə nisbətən, faizlə | |
|---|---|---|---|---|
| | | Yekunda | ÜDM-da | |
| ***Gəlirlər – cəmi*** | **1869,1** | **100,0** | **27,2** | **173,3** |
| *o cümlədən:* | | | | |
| Fiziki şəxslərin gəlir vergisi | 161,4 | 8,6 | 2,3 | 179,3 |
| Hüquqi şəxslərin mənfəət vergisi | 927,5 | 49,6 | 13,5 | 5,4d |
| Torpaq vergisi | 8,1 | 0,4 | 0,1 | 135,0 |
| Əmlak vergisi | 21,2 | 1,1 | 0,3 | 130,1 |
| Əlavə dəyər vergisi | 328,8 | 17,6 | 4,8 | 145,7 |
| Aksiz vergisi | 80,8 | 4,3 | 1,2 | 177,8 |
| Mədən vergisi | 34,1 | 1,8 | 0,5 | 117,6 |
| Xarici iqtisadi fəaliyyətlə bağlı vergilər | 83,1 | 4,4 | 1,2 | 103,2 |
| ondan idxal rüsumu | 46,6 | 2,5 | 0,7 | 101,7 |
| Sair vergilər | 19,4 | 1,2 | 0,3 | - |
| Digər gəlirlər | 204,7 | 11,0 | 3,0 | 123,8 |

Bu dövr ərzində büdcədən 1305.7 milyon manat və ya əvvəlki ildəkindən 143.4 faiz çox vəsait xərclənmiş və büdcənin icrasında 563.4 milyon manatlıq (ümumi daxili məhsulun 8.2 faizi qədər) profisit yaranmışdır. Büdcə xərclərinin 378.7 milyon manatı (29.0 faizi) iqtisadiyyata investisiya qoyuluşuna, 214.9 milyon manatı (16.5 faizi) əhalinin sosial müdafiəsi və sosial təminatına, 174.9 milyon manatı (13.4 faizi) isə təhsilin maliyyələşdirilməsinə sərf edilmişdir. Büdcə xərclərinin 37.1 faizini (484.3 milyon manatını) əhaliyə əmək haqqı, pensiya və müavinət ödəmələri təşkil etmişdir.

**2007-ci ilin yanvar-aprel aylarında dövlət büdcəsinin xərcləri**

| | İcra, milyon manat | Xüsusi çəkisi, faizlə | | 2006-cı ilin eyni dövrünə nisbətən, faizlə |
|---|---|---|---|---|
| | | Yekunda | ÜDM-da | |
| **Xərclər – cəmi** | **1305,7** | **100,0** | **19,0** | **143,4** |
| *o cümlədən:* | | | | |
| Ümumi Dövlət Xidmətləri | 136,0 | 10,4 | 2,0 | 98,3 |
| *ondan:* | | | | |
| beynəlxalq təşkilatlara üzvlük haqqı | 1,5 | 0,1 | 0,02 | 68,2 |
| Məhkəmə hakimiyyəti, hüquq -mühafizə və prokurorluq orqanları | 93,7 | 7,2 | 1,4 | 149,7 |
| Təhsil | 174,9 | 13,4 | 2,5 | 138,4 |
| Səhiyyə | 50,8 | 3,9 | 0,7 | 146,8 |
| Sosial müdafiə və sosial təminat | 214,9 | 16,5 | 3,1 | 2,2d |
| Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyət | 22,8 | 1,7 | 0,3 | 155,1 |
| İqtisadiyyata | 378,7 | 29,0 | 5,5 | 147,4 |
| *ondan:* - mənzil və kommunal təsərrüfatı | 15,5 | 1,2 | 0,2 | 117,4 |
| - kənd təsərrüfatı, meşə təsərrüfatı balıqçılıq,ovçuluq və ətraf mühitin mühafizəsi | 36,1 | 2,8 | 0,5 | 124,5 |
| - sənaye, tikinti və faydalı qazıntılar | 317,3 | 24,3 | 4,6 | 177,4 |
| - nəqliyyat və rabitə | 9,8 | 0,8 | 0,1 | 43,2 |
| Sair xərclər | 233,9 | 17,9 | 3,5 | 129,2 |
| ***Profisit*** | **563,4** | - | **8,2** | - |

**Azərbaycan Dövlət Neft Fondu aktivlərinin bir hissəsini DB xəzinədarlığının idarəçiliyinə verib**

Azərbaycan Dövlət Neft Fondu Dünya Bankının xəzinədarlığına 100 mln. dollar təqdim edib. Bunu Dünya Bankının Bakı nümayəndəliyinin rəhbəri Georqi Yedjeyçaq bildirib. Vəsaitlərin idarəçiliyə verilməsində şərtlərdən biri odur ki, üçillik məsləhət və ehtiyatların idarə olunması proqramı çərçivəsində Dünya Bankı ARDNF-də idarəçilik potensialının artırılmasına yardım edəcək. DB-nin Bakı ofisi rəhbərinin sözlərinə görə, hazırda Neft Fonduna bu istiqamətdə texniki yardım göstərilir. “DB xəzinədarlığının idarəçiliyində nə qədər vəsaitin olması əhəmiyyətli deyil. Əsas odur ki, onlar DB-nin yeni texnologiyası əsasında idarə olunur. Bu da DB və ARDNF portfelini risklərdən kənar edir”,-deyə Yedjeyçak söyləyib. Fransanın Societe General Asset Management bankının idarəçiliyinə ARDNF-in 50 mln. dollarının verilməsi ilə bağlı müqavilə ləğv olunduqdan sonra onun iki meneceri qalıb. Bu sərəncamında Fondun aktivlərinin 42,4 mln dolları olan Clarident (Credit Suisse bölməsi) və Deutschebank Asset Management-dir ($72,6 mln.). Mövcud investisiya siyasətinə əsasən, ARDNF xarici menecerlərin idarəetməsinə yalnız aktivlərinin 40 faizini verə bilər. 2007-ci il aprelin 1-nə olan göstəriciyə görə, ARDNF-in aktivi ilin əvvəli ilə müqayisədə 17,7 faiz artaraq 1720,3 mln. dollar təşkil edib.

# Vergilər

## Üç Azərbaycan şirkəti vergi hesab-fakturaları üçün blankların hazırlanması tenderində iştirak edib

Maliyyə Nazirliyində vergi hesab–fakturalarının hazırlanması üçün tender təkliflərinin açılışı olub. Tender Komissiyasının sədri, maliyyə nazirinin müavini Azər Bayramovun sözlərinə görə, tender Nazirlər Kabinetinin 13 mart 2006-cı il tarixli Mərkəzləşdirilmiş qaydada hesabat, satış və sifarişin aparılması qaydalarına müvafiq olaraq elan olunub. Artıq bu qaydalar təsdiq olunduqdan sonra ikinci tender keçirilir. Birinci tenderdə olduğu kimi, ikincidə də sifarişin ümumi həcmi 3 mln. hesab-faktura təkil edir. Bununla da Azərbaycanda bir il üçün vergi ödəyicilərinə tələb olunan hesab-fakturalar təmin olunur. Bu tenderdə üç Azərbaycan şirkəti - «Xazar Etiket», «Caşıoğlu» və «P.N.Novruz-94» istehsal-kommersiya firmaları iştirak edirdi. «Xazar Etiket» sifarişi ƏDV daxil olmaqla 182 644 manata yerinə yetirməyi təklif edib. Sifariş 5 mərhələdə hər biri 600 min manat olmaqla iyunun 7-dən avqustun 8-nə qədər təhvil veriləcək. «Caşıoglu» şirkəti isə sifarişi 177 min manata (ƏDV daxil) 3 mərhələdə hər birində 1 mln. ədəd olmaqla 4 iyun-24 iyul tarixlərində yerinə yetirməyi təklif edir. "P.N.Novruz- 94" hesab-fakturaları 182 664 manata hər birində 500 min ədəd olmaqla 6 mərhələyə iyunun 9-dan avqustun 9-a qədər təhvil verməyi təklif edib. A.Bayramov bildirib ki, təkliflərin qiymətləndirilməsi bu gün ərzində həyata keçiriləcək və qalib elan olunacaq. Vergi hesab-fakturalarının mərkəzləşdirilmiş hesabatı 2006-cı ilin 1 iyulundan aparılır və ilk sifariş 166,380 min manata «Caşıoglu» şirkətində həyata keçirilib.

## Azərbaycanda vergi ödəyicilərinə xidmət üçün ilk terminal istismara verilib

2009-cu il ərzində bütün ərazi vergi orqanlarında vergi ödəyicilərinə xidmət göstərilməsi üçün terminallar quraşdırılacaq. Bu barədə vergilər naziri Fazil Məmmədov nazirliyin ikinci ərazi vergi idarəsində terminalın açılışında məlumat verib. İlk terminal vergi ödəyicilərinə bu gün istifadəyə verilib. Vergi terminalları məlumat, vergi deklorasiyalarının yerinə yetirilməsi ilə bağlı xidmətlərin göstərilməsi, vergi qanunvericiliyi üzrə məlumat və izahatların əldə olunması üçün nəzərdə tutulub. Terminal vasitəsilə vergi ödəyiciləri şəxsi vərəqələrinə baxmaq, kompüter vasitəsilə məktub, ərizə və müraciət göndərmək, vergi ödəmələrinin qəbulunun təşkili və s. kimi imkanlar qazanacaqlar. Nazirin sözlərinə görə, vergi terminallarının tətbiqi yeni texnologiyalar vasitəsilə vergi ödəyicilərinə xidmət sisteminin təkmilləşdirilməsində yeni mərhələyə keçidlə xarakterizə olunur.

## Azərbaycanın vergilər naziri ƏDV-hesablar sisteminin tətbiqinə başlama müddətini elan edib

ƏDV-hesabların tətbiqi sistemi 2008-ci ildən etibarən tətbiq olunacaq. Bu barədə Azərbaycanın vergilər naziri Fazil Məmmədov bildirib. ƏDV-hesablarının tətbiqi barədə təklif ƏDV administrasiyası sisteminin təkmilləşdirilməsi məqsədilə 3 il bundan əvvəl irəli sürüb. «Bu sistemin yekun olaraq hazırlanmasına texniki anların çox olması səbəbinə görə vaxt lazımdır. Belə ki, bura bank sistemi, vergi ödəyicilərinin dövriyyə vəsaitləri cəlb olunacaq», deyə nazir qeyd edib. ƏDV-hesab sisteminin tətbiqi ƏDV üzrə Dövlət Büdcəsinə daxilolmaları 30-50 faiz artırmağa imkan verəcək. Hazırda Azərbaycanda ƏDV faizi 18 faiz təşkil edir. Nazir qeyd edib ki, hazırda həmçinin alternativ variant – çek variantı hazırlanır. «Yaxın iki-üç ay ərzində layihə təsdiq üçün parlamentə təqdim olunacaq. ƏDV–hesablar 2008-ci ildən etibarən istifadə olunacaq», deyə o bildirib. 2001-2005-ci illərdə həqiqi hesab fakturaların tətbiqi yolu vergi ödəyiciləri tərəfindən ƏDV dövriyyəsi üzrə vergi vermədən 3,4 mlrd. manat səviyyəyədək ixtisar olunub. Bu dövr ərzində Azərbaycan Dövlət Büdcəsində ƏDV-dən 626,4 mln. manat səviyyədə əskik olub. 2007-ci ildə ƏDV üzrə Vergilər Nazirliyi xətti ilə Dövlət Büdcəsinə daxilolmalar 580 mln. manat səviyyədə proqnozlaşdırılır.

# Büdcə xərcləmələri

**«Büdcə xərclərinin artımı inflyasiyanı sürətləndirməyəcək»**

"İnflyasiyanın indiki səviyyəsini faciə saymırıq". Milli Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov jurnalistlərlə söhbətində belə deyib. Onun sözlərinə görə, bütövlükdə ölkədə həyata keçirilən makroiqtisadi siyasətin məqsədi budur ki, qeyri-neft sahəsinin, kənd təsərrüfatı və sənayenin inkişafı üçün inflyasiyanın məqbul səviyyəsi bir rəqəmli olmalıdır. Bu ölkənin beynəlxalq rəqabətə dözümlülüyünə də imkan verər. Cənab Rüstəmov deyir ki, builki inflyasiyanın sürətlənməsi yanvarda qiymətlərin liberallaşdırlması və bazara təkliflərin artması ilə bağlıdır. Onun fikrincə, büdcə xərclərinin artırılmasının ölkədə inflyasiyaya əhəmiyyətli təsiri olmayacaq. Çünki büdcə xərcləri neft gəlirlərinin hesabına yox, daxili ehtiyatların: vergi və gömrük ehtiyatlarının hesabına olacaq. Ölkə rəhbərliyi ötən il inflyasiyanın bir rəqəmli olacağını bəyan etsə də, birinci rübün nəticələrinə görə, inflyasiyanın 16 faiz olduğu bildirilib.

**Nazir müavini: «Azərbaycan dəmir yollarının inkişafı proqramının dəyəri 1 mlrd. dollar məbləğində qiymətləndirilir»**

Azərbaycan dövlət dəmir yolunun 2007-2011-ci illər üçün beş illik inkişaf proqramı yaxın zamanlarda qəbul olunacaq. Hazırda bu sənəd təsdiq olunmaqdadır. Bu barədə Azərbaycanın nəqliyyat nazirinin müavini Musa Pənahov məlumat verib. Onun sözlərinə görə, bu proqramın dəyəri 1 mlrd. dollar məbləğində qiymətləndirilir. Bu proqram çərçivəsində dəmir yolunun lokomativ və vaqon parklarının yenidən qurulması, energetika təsərrüfatının yaxşılaşdırılması, dəmir yolu təsərrüfatının yenidən qurulması və digər infrastrukturların bərpa olunması üzrə işlər nəzərdə tutulub. Bundan başqa, 502 km uzunluqda olan Bakı-Böyük Kəsik (Gürcüstan sərhəddi) marşrutu üzrə sürət sərnişin qatarının işə salınması layihəsinin reallaşdırılması nəzərdə tutulur.

**2007-ci ildə Azərbaycanda ipoteka kreditləşməsinə əlavə vəsaitlər tələb olunacaq**

Azərbaycanın Milli Bankı (AMB) ölkədə ipoteka kreditləşməsinin maliyyələşdirilməsi ilə bağlı vəziyyətin öyrənilməsinə başlayıb. AMB-nin İdarə Heyətinin rəhbəri Elman Rüstəmovun bildirdiyinə görə, maliyyə resurslarının defisiti yaranacağı təqdirdə büdcə vəsaitlərilə yanaşı büdcədənkənar əlavə vəsaitlər də cəlb oluna bilər. Milli Bank artıq ilkin proqnozları qiymətləndirib. AMB yanında Azərbaycanın İpoteka Fondunun (AİF) hesablamalarına əsasən, 2010-cu ilə qədər dövr ərzində 6 mindən 10 minədək ailəni ipoteka krediti ilə təmin etmək üçün alınan mənzildən asılı olaraq 200 milyondan 250 milyon manatədək vəsait tələb oluna bilər. Hazırda AİF büdcə vəsaitləri hesabına ipoteka kreditləri verir. 2005-2007-ci illər üçün dövlət büdcəsinə ipoteka üçün 46 mln. manat qoyulub, bu gün bu məbləğdən ipoteka kreditləşməsinə 36 mln. manatdan çox məbləğ verilib.

**Azərbaycanda Sahibkarlığa Yardım Milli Fondu güzəştli kreditlərin verilməsi üçün büdcə vəsaitlərinin 7 faizini əldə edib**

Bu günə qədər Sahibkarlığa Yardım Milli Fondu (SYMF) vasitəsilə sahibkar subyektlərinin investisiya layihələrinin maliyyələşdirilməsi üçün 5,6 mln. manat güzəştli kredit ayrılıb. Bu barədə İqtisadi İnkişaf Nazirliyindən məlumat verilib. SYMF-in 332 sahibkar subyektinə müraciət etməsinə baxmayaraq, Milli Fonddan ayrılmış kreditləri 21 şəhər və rayonda 53 sahibkar subyekti alıb. İlin əvvəlindən Milli Fondun Nəzarətçilər Şurasının beş iclası keçirilib və layihələrin 70 faizinə səlahiyyətli kredit təşkilatlarına müraciət etmək hüququ verilib. Yenidən maliyyələş- dirilmiş layihələrin 73 faizdən çoxu regionların payına düşür. Güzəştli kreditlər sənaye məhsullarının istehsalı, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, turizm infrastrukturunun inkişafı, xidmət sahələri və s. üçün verilib. Bu il yenidən maliyyələşdirilmiş

layihələr hesabına 16 mindən çox yeni iş yeri açılıb. Milli Fondun 28 dekabr 2006-cı ildə təsdiqlənmiş vəsaitlərin mənimsənilməsinin yeni qaydalarına əsasən, layihə çərçivəsində səlahiyyətli kredit təşkilatlarının cəlb etdiyi vəsaitlər onların ümumi kapitalının maksimum 150 faizini təşkil etməlidir. Böyük və iri layihələrin maliyyələşdiril- məsinə 200 faizədək istiqamətləndirilib. İri kreditlərin maksimal həddi 1 mln. manatdan 3 mln. manatadək artırılıb. Mikrokredit və kiçik kreditlərin verilmə müddəti iki ilədək, orta – üç ilədək, böyük – beş ilədək, iri – yeddi ilədək müəyyən olunub. SYMF-in Nəzarətçilər Şurasının qərarına əsasən, kreditlərin verilməsi müddətinin artırılması üzrə istisnalar ola bilər. 2007-ci il dövlət büdcəsində SYMF üçün 80 mln. manat nəzərdə tutulub. Bunun da 6 mln. manatı NMR-dən olan sahibkarların maliyyələşdirilməsi üçün hesablanıb. Fondun hesabına 15 mln. manat köçürülüb.

**Azərbaycan Maliyyə Nazirliyi əhalinin sosial təbəqələrinin maliyyələşdirilməsinə dair işlərin nəticələrini açıqlayıb**

Azərbaycan Maliyyə Nazirliyi bu il yanvarın 1-dən mayın 10-dək sosial sahələrin maliyyələş-dirilməsi şöbəsi tərəfindən aparılan işlərin yekunlarını elan edib. Nazirlikdən verilən məlumata görə, əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə 254 min adama sosial müavinətlərin artırılması üçün dövlət büdcəsindən 19,7 mln. manat ayrılıb. Ünvanlı sosial yardım alan 1,075 mln. adam üçün isə büdcədən kommunal xərclərin ödənilməsi üçün 57,7 mln. manat ayrılıb.

**Parlament komissiyasının rəhbəri: Azərbaycan Dövlət Büdcəsinin neft sektorundan asılılığı zəifləyir**

Azərbaycan dövlət büdcəsinin neft sektorundan asılılığı tədricən zəifləyir. Bunu parlamentin iqtisadi siyasət daimi komissiyasının sədri Ziyad Səmədzadə bildirib. O, büdcə gəlirlərinin formalaşdırılmasında Azərbaycan Dövlət Neft Fondunun xüsusi çəkisinin 11 faizdən 10,4 faizə düşməsini diqqətəlayiq hal hesab edib. “Bizim hesablamalarımıza görə, iqtisadiyyatda neft sektoru hələ də aparıcı sahədir və bunun obyektiv səbəbləri var. Bütün dünya ölkələrində neft sahəsinin qurulmasına və əlavə gəlirlərin alınmasına ardıcıl 5-6 il tələb olunur”,-deyə Səmədzadə bildirib. Hələ ölkənin büdcə gəlirlərinin **42 faiz** neft sektorunun hesabına formalaşdırılır. Maliyyə naziri Samir Şərifovun fikrincə, 2008-2009-cu illərdə dövlət büdcəsinin neft gəlirlərindən asılılığı artacaq. Neftin dünya bazarlarında qiymətindən asılı olaraq ARDNF-in gəlirləri 4 mlrd. dollara qədər arta bilər. Büdcə düzəlişləri zamanı ARDNF-dən transferlərin artırılması nəzərdə tutulmayıb. Əlavə xərclər isə 138,5 mln. manat təşkil edib. Bu vəsaitdən 50 mln. manat Bakı-Tiflis-Qars dəmir yolu xəttinin tikintisinə, 88,5 mln. manat Azərbaycan Dövlət Neft Şirkətinə yönəldiləcək. Nazir hökumətin büdcənin neft sektorundan asılılığını azaltmağa hazır olduğunu bildirib. Bunun üçün qeyri-neft və sosial sahənin inkişafı infrastrukturun yaxşılaşdırılması planlaşdırılır. Şərifovun fikrincə, yaxın perspektivdə neft amili ÜDM strukturunda və Azərbaycanın sərbəst büdcəsində əsas yeri tutacaq. Hazırda Azərbaycan Dövlət Neft Şirkəti tərəfindən sutkalıq stabil hasilat 200 min barel, AMOK tərəfindən isə 600 min barel təşkil edir. Güman edilir ki, “Azəri-Çıraq-Günəşli” yatrağından sutkalıq hasilat 1,2 mln. barel təşkil edəcək. “Bununla əlaqədar olaraq mən hesab edirəm ki, qısa müddətdə büdcə gəlirlərinin neftdən asılılığı əhəmiyyətli dərəcədə artacaq”,-deyə nazir bildirib.

**Azərbaycan dövlət müəssisələri arasında qaz əməliyyatlarına görə qarşılıqlı hesablaşma mexanizmi dəyişdirilib**

Azərbaycan dövlət müəssisələri arasında qaz əməliyyatlarına görə qarşılıqlı hesablaşma mexanizmi dəyişdirilib. Xəzər işgüzar inteqrasiya klubunda (CIBC) görüş zamanı “Azəriqaz” QSC-nin prezidenti Əlixan Məlikov bildirib ki, bundan sonra ARDNŞ öz qazını “Azərenerji” SC-yə birbaşa satacaq. Əvvəllər ARDNŞ bu əməliyyatı “Azəriqaz” vasitəsilə yerinə yetirirdi. Dövlət Neft Şirkəti qazın min kubmetrini “Azəriqaz” SC-yə 42 manata satırdı. “Azəriqaz” SC də öz növbəsində elektrik enerjisi sistehsalı üçün yanacağı “Azərenerjiyə” satırdı.

Amma Məlikovun sözlərinə görə, “Azərenerji”nin “Azəriqaz”dan aldığı qaza görə ödəmələri aşağı olurdu, bu da ARDNŞ qarşısında qazın alınmasına görə “Azəriqaz”a borc yaradırdı. “Bundan sonara isə, ARDNŞ qazı birbaşa olaraq “Azərenerji”yə satacaq, “Azəriqaz” isə yalnız bu yanacağı nəql edəcək” - deyə Məlikov söyləyib.

# Büdcəyə nəzarət və şəffaflıq

## "Ernst & Young Holdings" Azərbaycan Dövlət Neft Fondunun auditini başa çatdırıb

Azərbaycan Dövlət Neft Fondu «Ernst Fondun kapital qoyuluşu 2006-cı ildə 1221175 min manat, 2005-ci ildə siə 1258 364 min manata olub. Fondun əməliyyat gəlirləri 2005-ci illə müqayisədə artaraq 2006-cı ildə 55 963 min manat olub. İnişil isə bu göstərici 27 915 min manat səviyyəsində qalıb. Auditor ötən il ARDNF-in təmiz gəlirinin 36 844 min manat azalmasını təsdiq edib. 2005-ci ildə isə zərər 61 755 min manat olub. Ötən ildə dövlət büdcəsinə 585 mln. manat, AzBTC Limited 75,409 mln. manat, Məcburi köçkünlərin inkişafına yardım fondu və Qaçqın və Məcburi Köçkünlərlə Iş üzrə Dövlət Komitəsinə 110,032 mln. manat, Oğuz-Qəbələ-Bakı su kəmərinin çəkilişinə 82,749 mln. manat, Samur–Abşeron kanalınınm irriqasiya sisteminin yenidənqurulmasına 37 mln. manat, Azərbaycan İnvestisya Şirkətinin yaradılmasına 90 mln. manat vəsait köçürülüb.

# Büdcə qanunvericiliyi

## Azərbaycan parlamenti "2006-cı il dövlət büdcəsinin icrası haqqında" qanun qəbul edib

Azərbaycan parlamentinin 25 mayda keçirilən plenar iclasında maliyyə naziri Samir Şərifov tərəfindən təqdim olunan "2006-cı ilin dövlət büdcəsinin icrası haqqında" qanun qəbul olunub. Onun sözlərinə görə, 2006-cı ildə Azərbaycan büdcəsinin mədaxil hissəsi 4867 mln. manat, məxaric hissəsi isə 4742 mln. manat səviyyəsində icra olunub. 2005-ci illə müqayisədə gəlir hissə 54 faiz, xərclər isə 68 faiz artıb. Büdcə profisiti 125 mln. manat təşkil edib. Azərbaycan Dövlət Neft Fondunun gəlirləri hesablanmadan, büdcə 861 mln. manat defisitlə qeydə alınıb ki, 2005-ci illə müqayisədə ÜDM-in 2,1 faizi qədər azalıb. Nazirin sözlərinə görə, 2006-cı ildə büdcə daxilolmaları 3 837 mln. manat proqnoza qarşı 3 869 mln. manat təşkil edib. Büdcə 2005-ci illə müqayisədə 1,8 mlrd. manat artımla 100,8 faiz yerinə yetirilib. ÜDM-də isə 4,5 dəfə artmaqla 21,8 faiz təşkil edib. Vergilər Nazirliyi büdcə proqnozunu 2005-ci illə müqayisədə 87,1 faiz çox olmaqla 101,7 faiz yerinə yetirib. Toplanmış vəsaitlərin 30,5 faizi (812 mln. manat) on iri vergi ödəyicisinin payına düşür.Bu 2005-ci illə müqayisədə 175 mln. manat, yaxud 27,4 faiz çoxdur. Dövlət Gömrük Komitəsi proqnoz göstəricilərini 102,1 faiz yerinə yetirib ki, bu da 2005-ci ildən 140 mln. manat çoxdur. Dövlət büdcəsinə 516 mln. manat köçürülüb. ARDNF-in büdcə köçürmələri 585 mln. manat təşkil edib. Ötən il dövlət təşkilatlarının büdcədən kənar köçürmələri 66 mln. manat təşkil edib. Büdcə gəlirlərinin əhəmiyyətli dərəcədə artmasına baxmayaraq, hələ də vergi potensialı mövcuddur və bu vəsaitlərin cəlb olunması üçün əlavə tədbirlər görülməlidir. 2006-cı ildə büdcə xərcləri 4025 mlrd. manat proqnoza qarşı 94,2 faiz icra olunmaqla 3790 mln. manat təşkil edib. 2005-ci illə müqayisədə xərclər 1649 mln. manat, yaxud 77,1 faiz artıb. ÜDM-də isə 3,4 faiz artmaqla 21,4 faiz təşkil edib. Sənaye və tikinti xərcləri 2006-cı ildə 5,4 dəfə, müdafiə - 2,2 dəfə, iqtisadi fəaliyyət – 80,3 faiz, yaşayış-kommunal təsərrüfat – 54,9 faiz, səhiyyə - 40,6 faiz, gənclər siyasəti və bədən tərbiyyəsi – 39,7 faiz, kənd və meşə təsərrüfatı, balıqçılıq, ətraf mühitin mühafizəsi – 37,2 faiz, məhkəmə-hüquq sistemi – 35,1 faiz, mədəniyyət, incəsənət – 31,9 faiz, təhsil – 28,6 faiz, sosial müdafiə təminatı – 12 faiz və s. artımlar olub. 26,9 faiz faktiki xərclər tikinti və təmir işlərinə sərf olunub ki, bu da 2005-ci illə müqayisədə 4,3 dəfə çoxdur, 24 faiz əmək haqqı fonduna (61 faiz çoxdur), 2,6 faiz ehtiyat fondlarına (3.4 dəfə çox) sərf olunub. Şərifovun sözlərinə görə, 2005-ci illə müqayisədə əhalinin adambaşına düşən gəlirləri 254 manatdan 445 manata, ÜDM isə 1488 manatdan 2078 manata artıb

## Azərbaycan parlamenti 2007-ci il dövlət büdcəsinin 8% artırılmasına dair qərar qəbul edib

Azərbaycan parlamentinin 25 may iclasında «2007-ci il dövlət büdcəsi haqqında» qanuna əlavələr və dəyişikliklərin edilməsi ilə bağlı məsələ müzakirə olunub. Milli Məclisin iclasda çıxış edən iqtisadi siyasət komissiyasının sədri Ziyad Səmədzadə cari ilin yanvar-aprel ayları ərzində ölkə iqtisadiyyatının sürətli və tarazlı inkişafına, əsas makroiqtisadi göstəricilərin artımına nail olunduğunu, bu səbəbdən də 2007-ci ilin dövlət büdcəsində bəzi dəyişikliklər edilməsinə zəmin yarandığını bildirib. Maliyyə naziri Samir Şərifov isə bu il ilin ilk dörd ayında ÜDM həcminin 2006-cı ilin eyni dövrü ilə müqayisədə 39,7% artdığını qeyd edib. Nazirin sözlərinə görə, bütün maliyyə mənbələri hesabına investisiya qoyuluşu 12,3%, orta aylıq əmək haqqı 26,2%, pullu xidmətlərin həcmi 37,6%, əhalinin banklardakı əmanətləri 61,8% artıb. Milli Bankın, Dövlət Neft Fondunun və Maliyyə Nazirliyinin valyuta ehtiyatlarının məcmu həcmi 4,1 mlrd. ABŞ dollarını üstələyib. Bununla yanaşı, birinci rübün büdcə göstəricilərində də yüksək dinamika müşahidə olunub, dövlət büdcəsinin mədaxili 1,088 mlrd. manat səviyyəsində yerinə yetirilib ki, bu da 2006-cı illə müqayisədə 400 mln. manat çoxdur. Dövlət büdcəsinin xərcləri isə 834 mln. manat həcmində icra edilib ki, bu da ötən ilin eyni dövründəkindən 170 mln. manat çoxdur. Cari ilin birinci rübündə dövlət büdcəsindən 420 mln. manat və ya 50,3% həcmində vəsait sosialyönümlü xərclərin maliyyələşdirilməsinə yönəldilib. İnvestisiya xərcləri isə 239 mln.

manat təşkil edib. S.Şərifovun sözlərinə görə, iqtisadiyyatdakı bütün müsbət amillər nəzərə alınmaqla dövlət başçısı tərəfindən 2007-ci ilin dövlət və icmal büdcələrində dürüstləşmənin aparılması məqsədəuyğun hesab edilib. Nazir deyib ki, qanun layihəsində 2007-ci ilin dövlət büdcəsinin gəlirlərinin 435,2 mln. manat artırılması nəzərdə tutulub ki, bu da cari ilin ilkin proqnozuna nisbətən 8,2%, 2006-cı ilin icrasına nisbətən isə 49,2% çoxdur: «Parlament bu təklifi qəbul etsə, büdcə gəlirlərinin ilin sonuna gözlənilən ÜDM-nin tərkibindəki xüsusi çəkisi 25,5%-dək qalxmaqla 2005-ci ilə nisbətən 3,8 faiz bəndi artacaq». S.Şərifov bildirib ki, dəqiqləşdirilmə ilə dövlət büdcəsi gəlirlərinin 260 mln. manatı Vergilər Nazirliyi, 140 mln. manatı Dövlət Gömrük Komitəsi tərəfindən, 15,9 mln. manatı dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar vəsaitləri üzrə daxilolmalardan, 7,3 mln. manatı banklardan alınan dividentlərdən, 12 mln. manatı isə vahid xəzinə hesabının qalığının idarəetməyə verilməsindən əldə olunan daxilolmalardan formalaşacaq: «2007-ci ilin dövlət büdcəsinin 600,2 mln. manat artırılaraq 6,315 mlrd. manata çatdırılması nəzərdə tutulur. Bu da 2006-cı ilin icrasına nisbətən 66%, cari ilin təsdiq olunmuş xərclərinə nisbətən 10,5% çoxdur. İlin sonuna gözlənilən ÜDM-nin tərkibində dövlət büdcəsi xərclərinin xüsusi çəkisi 27,9%-ə çatmaqla 2006-cı ilin icrasına nisbətən 6,5 faiz bəndi artacaq». Qeyd edək ki, müzakirələr zamanı çıxış edən deputatlar dövlət büdcəsinin sosialyönümlü olduğunu müsbət qiymətləndiriblər. Müzakirələrdən sonra qanun layihəsi qəbul edilib. İclasda, həmçinin «Dövlət Sosial Müdafiə Fondunun 2007-ci il büdcəsi haqqında» qanuna əlavə və dəyişikliklər müzakirə edilərək təsdiqlənib.

**SSRİ dövründən banklarda qalan əmanətlərin qaytarılmasını nəzərdə tutan qanun layihəsi hazırlanır**

Azərbaycan vətəndaşlarının SSRİ dövründən banklarda qalan əmanətlərinin qaytarılması ilə bağlı hökumətdə fikir ayrılığı var. Milli Məclisin İqtisadi siyasət daimi komissiyasının üzvü, millət vəkili Vahid Əhmədovun sözlərinə görə, Prezident Aparatında batmış əmanətlərin qaytarılması məsələsini tənzimləyəcək qanun layihəsi hazırlanır. Qanun layihəsi hələ də Milli Məclisə təqdim olunmayıb: «Parlament əmanətlərin qaytaralması haqqında qanun layihəsini qəbul etməlidir ki, büdcədən bu məsələyə vəsait ayırmaq mümkün olsun. Əmanətlərin qaytarılması üçün 2006-cı ilin dövlət büdcəsindən 50 milyon manat ayrılmışdı. Lakin qanun layihəsi qəbul edilmədiyinə görə, bu vəsait istifadə olunmayıb». Millət vəkili qeyd edib ki, əsas problem qaçqın və məcburi köçkünlərin SSİR dövründən banklarda qalan əmanətlərinin qaytarılması ilə bağlıdır. Çünki qaçqın və məcburi köçkünlərin böyük əksəriyyətinin əmanət kitabçaları yoxdur: «Bu məsələni dəqiqləşdirmək, həmin kitabçaları müəyyən etmək məsələsində fikir ayrılığı yaranıb. Bundan başqa, əmanətlərin ödənilməsi məsələsində də ziddiyyətli mövqelər var. Amma istənilən halda bu əmanətlər qaytarılmalıdır». Əhmədov vurğulayıb ki, hökumət qanun layihəsini təqdim etsə, Milli Məclis onu qısa müddətdə qəbul edəcək ki, əhalinin əmanətləri qaytarılsın. Onun fikrincə, əmanətlərin bir hissəsini qiymətlər kağızlar, digər hissəsini nəqd pul formasında qaytarmaq olar. Bu işi 5-8 ilə həyata keçirmək mümkündür.

**Azərbaycanın Nazirlər Kabineti müavinətlərin verilməsi qaydalarına dəyişiklikləri təsdiqləyib**

Azərbaycanın Nazirlər Kabineti kommunal, nəqliyyat və digər xidmətlər üzrə güzəştlərin müavinətlərlə əvəz olunması ilə əlaqədar həmin müavinətlərin vətəndaşlara verilməsi qaydalarına dəyişiklikləri təsdiq edib. Bu barədə Azərbaycanın Nazirlər Kabinetinin məlumatında bildirilib. Kommunal, nəqliyyat və digər xidmət növlərinə güzəştlərin tətbiq olunması barədə sərəncam 9 yanvar 2002-ci il tarixdə qəbul olunub.

**Parlament "Daxili audit haqqında" qanun layihəsini qəbul edib**

Milli Məclisin 22 may tarixində keçirilən iclasında "Daxili audit haqqında" qanun layihəsi qəbul olunub. Parlamentin İqtisadi siyasət daimi komissiyasının sədri Ziyad Səmədzadə bildirilib ki, bu qanun Azərbaycanda daxili audit xidmətinin təşkilini, daxili auditin həyata keçirilməsinin hüquqi əsaslarını, daxili auditorların hüquq və vəzifələrini müəyyən edir, menecmentin səmərəliyinin artırılmasını, daxili resurslardan rasional istifadə edilməsini, risklərin idarə olunmasını nəzərdə tutur. Qanun layihəsi birinci və ikinci oxunuşda parlamentdə müzakirə olunub və qəbul edilib. "Daxili audit haqqında" qanun layihəsinin hazırlanmasında məqsəd Azərbaycanda audit xidməti sahəsində idarəetmənin səmərəliliyinin artırılması, risklərin qiymətləndirilməsi və daxili ehtiyatlardan məqsədə- uyğun istifadə edilməsinin təmin olunmasıdır. Layihənin Milli Məclisdə ikinci oxunuşda müzakirəsi zamanı verilən təkliflərin əksəriyyətini nəzərə alınıb və qanun əsaslı surətdə təkmilləşdirilib. Müzakirələrdən sonra qanun layihəsi ücüncü oxunuşda qəbul olunub.

# Vətəndaş cəmiyyəti

## Milli Büdcə Qrupunun (MBQ) 2007-ci il may ayı üçün fəaliyyəti

May ayı Azərbaycan Respublikasında büdcə prosesinin iki mühim mərhələsi ilə xarakterizə edilir. Belə ki, adətən məhz may ayında həm əvvəlki ilin büdcə icrası, həm də cari ilin büdcəsinə əlavə və dəyişikliklər müzakirə və qəbul edilir. Ötən il olduğu kimi 2007-ci ildə də MBQ 2006-cı ilin icra edilmiş büdcəsi və 2007-ci il büdcəsinə əlavə və dəyişikliklərlə bağlı iki Rəy hazırladı. Ötən ildən fərqli olaraq, bu il hər iki sənəd Hesablama Palatasının Rəyləri ilə eyni vaxtda hazırlanmışdır. Rəylər 30 May tarixində millət vəkilləri, dövlət rəsmiləri, beynəlxalq maliyyə institutları nümayəndələri, o cümlədən KİV nümayəndələrinin iştirakı ilə dəyirmi masada müzakirə edilmiş, əsas məqamları əks etdirən təqdimat iştirakçıların nəzərinə çatdırılmışdır. Təqdimatlar istər 2006-cı il büdcəsinin icrası, istərsə də, 2007-ci il büdcəsinə edilmiş əlavə və dəyişikliklərlə bağlı əsas problemli görünən məqamları iştirakçıların nəzərinə çatdırdı. 2006-cı ilin büdcə icrasına MBQ-nin Rəyində büdcə gəlirləri, onların mənbələri, büdcə gəlirlərində neft amilinin çox yüksək olan payı (60%), büdcə və sahibkarlıq, sahibkarlıqla bağlı vergilərin qeyri-proporsional artım səviyyəsi, vergi borcları və iri vergi ödəyiciləri ilə bağlı məqamlar, o cümlədən büdcənin profisit “problemi” şərh edildi. Eyni zamanda büdcə təsnifatı ilə bağlı investisiya xərclərinin təsnifatının əlavə edilməsinə böyük ehtiyac olduğu vurğulanmışdı. MBQ Rəyləri iştirakçılar, xüsusən millət vəkilləri tərəfindən yüksək qiymətləndirilmişdir.

*Milli Büdcə Qrupu və Azadlıq Radiosu* – Ötən ay Azadlıq Radiosunda büdcənin təmir-tikinti xərcləri, məktəblərdə qeyri-rəsmi pul yığımları və korrupsiya mövzusunda 3 verilişi hazırlanmışdır. Sözü gedən məsələ və problemlər sadə dildə dinləyicilərə çatdırılmışdır.

May ayında eyni zamanda MBQ-nun Gəncə nümayəndəliyi “Gəncə sual var” verilişində MBQ-nin regional layihəsi olan “Təhsildə şəffaflıq” layihəsi ətrafında müzakirələr aparmışdır.

*Şəbəkə layihələri* – bütün şəbəkə layihələri üzrə monitorinq modulunun işlənilməsinə başlanılmış, sosial və regional istiqamət üzrə ilkin monitorinq həyata keçirilmişdir.

*Xarici əməkdaşlıq* – May ayında MBQ Beynəlxalq Valyuta Fondunun Fiskal Şəffaflıq Kodunun müzakirəsində iştirak etmişdir. Telefon bağlantısı ilə həyata keçirilən bu müzakirədə əsas etibarı ilə Amerika QHT-ləri, Azərbaycanda isə yalnız MBQ iştirak etmişdir.

# Beynəlxalq təcrübə

## Azərbaycanın Maliyyə Nazirliyi SBFIC-in səlahiyyətlərini uzatmağa hazırlaşır

Azərbaycanın Maliyyə Nazirliyinə Beynəlxalq əməkdaşlıq üzrə əmanət kassaları Fondu (SBFIC) ilə imzalanmaq üçün müqavilə təqdim olunub. Müqavilə əsasında Alman Azərbaycan Fondu (AAF) tərəfindən SBFIC idarəetməsinin tarixi uzadılacaq. Bu barədə məlumatı Alman İnkişaf Bankı KfW Bakı ofisinin rəhbəri Natiq Abdullayev verib. 2001-ci ildə fəaliyyətə başladığı dövrdən KfW-nin meneceri funksiyasını SBFIC yerinə yetirir. Onun idarəetmə müddəti 2006-cı ilin sonunda başa çatsa da alman bankının hələ tam mənimsənilməmiş qrant vəsaitlərinin məsləhətçinin xidmətlərinin ödənilməsinə yönəltmək qərara alınıb. Bununla da KfW SBFIC-in fəaliyyət müddətini fevralın sonuna qədər uzadıb. Abdullayev söyləyib ki, yeni müqavilə çərçivəsində menecerin xidmətlərinin sonrakı mərhələdə AAF-ın öz vəsaitləri hesabına ödənilməsi təklif olunur. Alman Bankının AAF üçün üçüncü tranşı isə 2008-ci ildən tez həll olunmayacaq. KfW birləşdirilmiş kredit təklif etsədə Azərbaycan hökuməti kreditin kommersiya hissəsindən imtina edib. Güzəştli hissə üzrə isə (5 mln. avro) yenidənproqramlaşdırma təklif olunurdu. Maliyyə Nazirliyi kreditin güzəştli hissəsini ölkə üçün qəbul olunan hesab edir, belə ki bu kiçik və orta sahibkarlığın inkişafı üçün nəzərdə tutulub. AAF üçün birləşdirilmiş kreditin ümumi həcmi eurolibor+2 dərəcəsi ilə təsbit olunmaqla 5 il ödəmə müddətli 20 mln. avro məbləğində 10 il üçün nəzərdə tutulmuşdu. Müqavilənin birləşdirilmiş kredit əsasında hazırlandığı nəzərə alınsa, yalnız kreditin güzəştli hissəsi alındığına görə müqavilə yenidən proqramlaşdırılmalıdır. AAF-ın yaradılması barədə razılaşma 1999-cu ildə imzalanıb. Amma kreditlər isə 2001-ci ildən verilir. KfW AAF-a 8,7 mln. avro məbləğində iki kredit ayırıb. Kredit illik 0,75%-lə 10 il güzəşt dövrü olmaqla 35 ilə ayrılıb. 2001-ci ilin martından AAF-ın tərəfdaşları qismində Bank of Baku və UniBank, 2003-cü ilin yanvarından Parabank və Bank Respublika, 2004-cü ilin sentyabrından Azərdəmiryolbank və Azəriqazbank, 2006-cı ilin dekabrından isə Rabitabank və Muğanbank çıxış edir.

*Qeyd: İnformasiyaların mənbəyi "Trend" İnformasiya Agentliyi və Vergilər Nazirliyidir.*

Məsul redaktor: Kənan Aslanlı (İctimai Vəsaitin Monitorinqi Mərkəzi)
kenan@pfmc.az
http://www.nbg.az

İctimai Vəsaitin Monitorinqi Mərkəzi
Ünvan: 39, Füzuli küç., 28, 2ci mərtəbə, Bakı AZ1014, Azərbaycan
Telefon/Fax: (+994 12) 497 8967, 596 3774
office@pfmc.az
http://www.pfmc.az